**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

**5718.01 - “Dünya ədəbiyyatı” (fars ədəbiyyatı) ixtisası üzrə fəlsəfə doktoru proqramı üzrə ixtisas imtahanı üçün**

# PROQRAM

**Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Elmi Şurasının qərarı ilə tövsiyə edilmişdir.**

**(2026-ci il 31 mart 5 saylı protokol)**

**BAKI – 2026**

## İZAHAT VƏRƏQİ

İranşünaslıq ixtisası üzrə ixtisaslaşmış mütəxəssislərin bu ölkənin ədəbiyyat və mədəniyyət tarixi ilə yaxından tanışlığı böyük rola malikdir. Fars ədəbiyyatının öyrənilməsi və tədqiqi İranın malik olduğu çoxşaxəli və zəngin bədii söz sənətinin tarixi mərhələlərlə izlənməsinə yardım göstərir. İranda ədəbiyyat tarixinin tədqiqi təkcə fars ədəbiyyatı üçün deyil, ümumilikdə Şərq xalqlarının da ədəbiyyat, mədəniyyət və adət-ənənədə sahib olduqları müştərək və fərqli məsələlərin öyrənilməsi və müqayisəli analizi baxımından da xüsusi əhəmiyyət kəsb edir. Bu sırada Şərq xalqlarının ədəbiyyatının bir-birinə təsiri, oxşar və fərqli cəhətləri, biri digərini zənginləşdirməsi, ədəbi proseslərin izlənməsi əsas yer alır.

Fars ədəbiyyatı onu yaratmış xalqın tarixi və mədəniyyəti qədər zəngin və geniş mündəricatlıdır. Bəşər tarixinin bədii söz sənəti xəzinəsində ən parlaq incilərə malik fars ədəbiyyatı min üç yüz illik bir dövrün bədii söz sənətini özündə ehtiva edir. Bədii ədəbiyyat İranın mədəni, fəlsəfi, ictimai-siyasi, dini tarixi keçmişinin öyrənilməsi, xalqın mədəni-fəlsəfi fikir tarixini, onun inkişaf mərhələlərini daha yaxından izləməyə geniş imkan verir. Hər hansı bir ölkənin ədəbiyyatı xalqın mənəvi aləminin ictimai-fəlsəfi baxışının daha dolğun əksidir.

### Proqramın məzmunu

Doktorontura pilləsi üçün nəzərdə tutulmuş mövcud fənn-ixtisas proqramı fars ədəbiyyatının öyrənilməsi üçün əsas mövzuları əhatə edir. Proqramda klassik, orta əsrlər və müasir dövr fars ədəbiyyatının əsas məsələləri yer almışdır. Proqramda fars ədəbiyyatının min üç yüz illik tarixi inkişafı dövründə mövcud olmuş müxtəlif ədəbi növlər və cərəyanlar, ədəbi simaların həyatı və poetik irsi, fars poeziyası və nəsrinə dair ən ümdə müxtəlif mövzular öz əksini tapmışdır. Eyni zamanda namizədlərə ədəbiyyatın meydana gəldiyi və inkişaf etdiyi tarixi, ictimai-siyasi şəraitin araşdırılması, görkəmli söz ustadlarının ədəbi fəaliyyətinin təhlil və tədqiq edilməsi üçün mövzular da təqdim edilmişdir.

1. **Samanilər dövrü fars ədəbiyyatı**

**Rudəki Səmərqəndi:** Şairin yaşadığı dövr və həyatı. «Adəm-e şer» titulunu qazanmış şairin yaradıcılığı haqqında məlumat. Rudəkinin poetik irsi barədə tədqiqatçıların fikirləri. Rudəki şeirinin bədii xüsusiyyətləri. Şairin “مادر می” və “شکایت از پیری” qəsidələri. “مادر می” qəsidəsinin yazılma səbəbləri.

2. **Qəznəvilər dövrü fars ədəbiyyatı**

**Əbülqasim Firdovsi:** Şairin həyatına dair rəvayətlər. Ədibin «Şahnamə» əsəri. Əsərin yaranma tarixi və yazılma səbəbləri. «Şahnamə» nin məxəzləri, quruluşu və qısa məzmunu. «Şahnamə» nin qəhrəmanları. Firdovsinin işğalçı müharibələrə münasibəti. «Şahnamə»də epik dastanlar. «Şahnamə» və dünya ədəbiyyatı. Firdovsinin «Yusif və Züleyxa» poeması.

**Əsədi Tusi:** Şairin həyat və yaradıcılığı. Əsədinin münazirələri. Münazirə klassik ədəbi janrlardan biri kimi. Şairin «Gərşaspnamə» əsəri orta əsr fars qəhrəmanlıq eposu kimi. Əsərin quruluşu və qısa məzmunu.

**3. Səlcuqilər dövrü fars ədəbiyyatı**

**Ömər Xəyyam:** Şairin həyatı, elmi-ədəbi fəaliyyəti. Xəyyamın rübai yaradıcılığı. Şairin rübailərinin xüsusiyyətləri. Xəyyamın əsərlərinin tərcüməsinə dair. Avropada şairin dəbi irsinə münasibət.

**4. Fars ədəbiyyatında sufizm**

Təsəvvüfün ictimai və fəlsəfi mahiyyəti. Təsəvvüfdə iki əsas istiqamət: zahidlik və rindlik. İranın mütəsəvvüf şairləri: Baba Tahir, Sənai Qəznəvi, Fəridəddin Əttar və b. Sənai Qəznəvinin «Seyr əl ibad ilə əlməad», «Hədayeğ əlhəğayeğ», Fəridəddin Əttarın «Məntiq ətteyr», «Təzkirət ülövliya» əsərləri haqqında məlumat.

**Cəlaləddin Rumi:** Şairin həyat və yaradıcılığı. Ruminin «Divan-e kəbir»i. Onun Şəms Təbriziyə münasibəti. Cəlaləddin Ruminin «Məsnəvi-ye mənəvi» əsəri və onun ictimai - tərbiyəvi, fəlsəfi mahiyyəti.

**5. XII-XIII əsrlər fars ədəbiyyatı**

**Əmir Xosrov Dəhləvi:** Ədibin həyat və yaradıcılığı. Əmir Xosrov böyük Azərbaycan şairi Nizami Gəncəvi «Xəmsə» sinə nəzirə yazan ilk şair kimi. Şairin «Divan» ı və «Xəmsə» sinə daxil olan əsərlər haqqında. Nizami Gəncəvi və Əmir Xosrov «Xəmsə»lərinin oxşar və fərqli cəhətləri.

**Sədi Şirazi:** Şairin həyat və yaradıcılığı. Sədi didaktik şair kimi. Ədibin «Gülüstan» və «Bustan» əsərləri. «Gülüstan»ın ədəbi-elmi əhəmiyyəti, əsərin İran ədəbiyyatı tarixində yeni bir janr nümunəsi olması. Sədinin ictimai mühit çərçivəsində müxtəlif insan təbəqələrinə münasibəti. Şairin ictimai görüşlərindəki ziddiyyət. Sədi qəzəl ustası kimi. Sədi yaradıcılığında folklor motivləri.

**6. XIV əsr fars ədəbiyyatı**

**Hafiz Şirazi:** Şairin dövrü, həyat və yaradıcılığı. Hafiz İran ədəbiyyatı tarixində ən böyük qəzəl ustası kimi. Hafiz qəzəllərinin bədii xüsusiyyətləri. Şairin yaşadığı ictimai mühitə münasibəti, qəzəllərindəki kədərin ictimai kökləri. Hafizin fars ədəbi dilinin inkişafında rolu. Hafiz qəzəllərinin Şərqdə və Qərbdə öyrənilməsi.

**7. XV əsr fars ədəbiyyatı**

**Əbdürrəhman Cami:** Şairin həyat və yaradıcılığı. XV əsrdə İranda baş verən hərc-mərclik və müharibələr. Şair və alimlərin İrandan mühacirəti. Ruhanilərin şairlərə qarşı mübarizəsi. İran hüdudu xaricində fars şeirinin tərəqqisi. Caminin «Həft ourəng» əsəri və onun İran ədəbiyyatı tarixində yeri.

**8. XVI-XVIII əsrlər fars ədəbiyyatı**

İran ədəbiyyatında tənəzzül dövrü. XV əsrin sonu və XVI əsrin əvvəllərində İranda və ümumiyyətlə Yaxın Şərqdə baş verən ictimai-siyasi hadisələr. Ardı-arası kəsilməyən müharibələrin ölkənin iqtisadi və mədəni həyatında yaratdığı böhranlı vəziyyət. İran ziyalılarının və şairlərin ölkədən mühacirəti.

**Fars şeirində hind üslubu:** İranda məzhəbi şeirin inkişafı və Səfəvilərin siyasəti nəticəsində Fəqani, Urfi, Nəziri və başqa şairlərin Hindistana Moğollar sarayına pənah aparması. Hindistanda yaranan fars şeirinin üslub və dil xüsusiyyətləri. Hind üslubunun əsas xüsusiyyətləri.

**«Bazgəşt» ədəbi cərəyanı:** Fars ədəbiyyatı klassiklərinin üslubunun dirçəldilməsi. «Bazgəşt» cərəyanının məqsəd və üsulları. Ədəbi əncümənlər.

**9. XIX əsr fars ədəbiyyatı. Maarifçilik dövrü.**

**Hacı Zeynalabdin Marağeyi:** Yazıçının həyatı. Farsca yazan azərbaycanlı ediblərin İran intibahı tarixində rolu. Zeynalabdin Marağeyinin «Səyahətname-ye Ebrahim bəy» romanının bədii və ictimai qiyməti. Əsərdə İran ictimai həyatının əksi. Əsərin İranda vətənpərvərlik hisslərini oyatmaqda əhəmiyyəti.

**Əbdürrəhim bəy Talıbov:** Yazıçının həyat və yaradıcılığı. Yazıçının fars realist nəsrinin inkişafında xidməti. Talıbovun «Ketab-e Əhməd» əsəri haqqında məlumat. Əbdürrəhim bəy Talıbovun XIX əsrdə İranda demokratik ideyaların yayılmasında rolu.

**10. Məşrutə inqilabı və fars ədəbiyyatı.**

XX əsrin birinci yarısında İranda ictimai-siyasi, ədəbi və mədəni mühit. Məşrutə dövrü fars ədəbiyyatına Azərbaycan ədəbiyyatının təsiri. «Molla Nəsrəddin» jurnalı. M.Ə.Sabir və İran şeiri. İ.Mirzə, Ə.Dehxoda, Ə.Lahuti, M.Bahar kimi görkəmli ədəbi simaların poetik fəaliyyətləri.

**Fərruxi Yəzdi:** Şairin həyat və yaradıcılığı. Onun İran ədəbiyyatında tutduğu mövqe. Fərruxi inqilabçı demokrat şair kimi.

**Mirzadə Eşqi:** Şairin dövrü və həyatı. Eşqi böyük vətənpərvər şair kimi. Şairin «Rəstaxiz-e bastan», «İdeal-e yek pir mərd-e dehğan», «Ehteyac, ey ehteyac» əsərlərinin ictimai-siyasi əhəmiyyəti.

**Pərvin Etesami:** Şairənin həyatı. Pərvinin poeziyası. Din və mənəviyyat edibin yaradıcılığının əsas xətti kimi. Pərvin təmsil ustadı kimi. Şairənin təmsillərinin əsas xüsusiyyətləri.

**11. XX əsr fars bədii nəsri**

XX əsrin 20-ci illərində fars bədii nəsrinin məzmununda yenilik. Avropa və rus klassik yazıçılarının əsərlərinin fars dilinə tərcüməsi bu yeniliyi yaradan amillərdən biri kimi.

**Seyid Məhəmmədəli Camalzadə:** Yazıçının həyat və yaradıcılığı. Camalzadənin yeni fars nəsrinin yaranmasında rolu. **"یکی بود و یکی نبود"**, **"صحرای محشر"** **"غیر از خدا کسی نبود"**və s. əsərlərində İran ictimai mühitinin təsviri və tənqidi.

**Sadiq Hidayət:** Yazıçının həyat və yaradıcılığı. Yazıçının «**ربعه**» cəmiyyətində fəaliyyəti. Sadiq Hidayətin «Haciağa», «Buf-e kur», «Ab-e zendegi», «Daş Akol» və s. əsərlərinin ictimai mahiyyəti. Ədibin İran bədii nəsrinə təsiri.

**Səid Nəfisi:** Yazıçının həyat və yaradıcılığı. Səid Nəfisi görkəmli alim kimi. Yazıçının «Ferəngiz», «Nim-e rah-e beheşt» romanları.

**Bozorg Ələvi:** Yazıçının həyat və yaradıcılığı. Bozorg Ələvinin əsərlərində onun həyat və mübarizə illərinin inikası. Yazıçının «Çəmədan», «Vərəğpareha-ye zendan», «Nameha», «Çeşmhayəş» və s. əsərləri.

**12. XX əsrin II yarısında fars ədəbiyyatı**

**Camal Mirsadeqi:** Yazıçının həyat və yaradıcılığı. Mirsadeqinin «Şaxeha-ye şekəste», «Bərf,

səgha, kəlağha», «Çeşmha-ye mən-e xəste», «Derazna-ye şəb» əsərlərində ictimai mühitin dolğun əksi.

**13. Fars ədəbiyyatında «Yeni şeir» ("شعر نو")**

İranda «Yeni şeir» ədəbi cərəyanının meydana gəlməsi. Yeni fars poeziyası və ədəbi ənənələr. «Yeni şeir»in mövzu və dil xüsusiyyətləri. Nima Yuşic və **"شعر نو"**

Nima Yuşicin həyat və yaradıcılığı. Nimanın «Əfsanə» poeması. Şairin əsərlərində ictimai motivləri.

**Nader Naderpur:** Şairin həyat və yaradıcılığı. Naderpurun «**دستها و چشمها**», «**دختر جام**» , « **شعر انگور**», «**سرمه خورشید**» adlı şeir məcmuələri. Naderpur **"شعر نو"**ədəbi cərəyanının davamçı və nəzəriyyəçisi kimi.

**Foruğ Fərruxzad:** Şairənin həyat və yaradıcılığı. Foruğun “اسیر”, **"دیوار"**, **"عصیان"** , **"تولد دیگر"** və “**ایمان بیاوریم به آغاز فصل سرد**” məcmuələrinin ideya-tematik və bədii xüsusiyyətləri. Foruğ Fərruxzadın kino fəaliyyəti.

**14. 1970-1980-cı illər fars ədəbiyyatı**

**Məhəmmədhüseyn Şəhriyar:** Şairin həyat və yaradıcılığı. İran ədəbiyyatında Şəhriyarın mövqeyi. Şairin farsca «Divan»ı və «Heydər babaya salam» poeması. İranda Azərbaycan dilli şeirin dirçəlişi.

**15. Fars ədəbiyyatı xxı əsrin əvvəlində.**

Fars ədəbiyyatının xxı əsrin I rübündə inkişafı.Fars poeziyası və bədii nəsrin xüsusiyyətləri.Ədəbiyyatda əks olunan əsas mövzular.

## Ə D Ə B İ Y Y A T

**Azərbaycan dilində:**


1. Billuri H. Məhəmmədhüseyn Şəhriyar. Bakı: 1984.

2. Əlizadə N. Bozorg Ələvinin nəsri. Bakı: 1989.

3. Hacızadə Ə. Fərruxi Yəzdinin poeziyası. Bakı: 1965.

4. Hüseynov B. XX əsr fars şeirində ənənə və novatorluq. Bakı: 1975.

5. İbrahimova İ. Mövlanə Cəlaləddin Ruminin «Məsnəvi-ye mənəvi» əsəri islam təsəvvüfünün əsas qaynaqlarından biri kimi. Bakı: 2005.

6. Məmmədzadə H. M.F.Axundov və Şərq. Bakı: 1971.

7. Məhəmmədi M. Saib Təbrizi və fars dilli poeziyada hind üslubu. Bakı: 1994.

8. Məhəmmədi M. Tədqiqlər və tərcümələr. Bakı: 2004.

## Rus dilində:


9. Бертельс Е.Э. История персидско-таджикской литературы. Москва: 1960.

10. Бертельс Е.Э. Суфизм и суфийская литература. Москва: 1965.

11. Брагинский И.С., Комиссаров Д. Персидская литература (краткий очерк). Москва: 1963.

12. Дорри Дж. Персидская литература XX века. Москва: 2005.

13. История персидской литературы XIX-XX веков. Москва: 1999.

14. Кляшторина В.Б. Современная персидская поэзия. Москва: 1962.

15. Кляшторина В.Б. «Новая поэзия» в Иране. Москва: 1975.

16. Кязимов М. Из истории суфийской мысли. Баку: 2001.

17. Кязимов М. Персидская поэзия конца XX века. Баку: 2006.


## Fars dilində:


18. صفا ذبیح الله. تاریخ ادبیات ایران . جلدهای ۱-۴ . تهران: ۱۳۷۳

19. براهنی رضا . طلا در مس.تهران: ۱۳٤۷

20. حاکمی اسماعیل. . معاصر ایران ادبیات تهران: ۱۳۷٦

21. حقوقی محمد. شعر نو از آغاز تا امروز، جلد اول. تهران: ۱۳۷۷

22. زرین کوب عبد الحسین. شعر بی دروغ، شعر بی نقاب. تهران: ۱۳۷۲

23. شفیعی کدکنی محمدرضا. ادوار شعر فارسی. تهران: ۱۳۸۰

24. شمیسا سیروس. سبک شناسی شعر. تهران: ۱۳۷٤

25. لنگرودی شمس. تاریخ تحلیلی شعر نو، جلد ۱-۴. تهران: ۱۳۷۸